# Sumqayıta həsr olunmuş şeirlər



Əvəz Mahmud Lələdağ

İcazə ver, Sumqayıtım,
Təbrik edim mən yaşını.
Qucaqlayım, öpüm sənin,
Hər guşəni, hər daşını.

Gözəl şəhər, az yaşında,
Tarixlərə düşdü adın.
Xəzər sənə layla çaldı,
Pərvazlanıb qanadlandın.

Alqış sənin qələbənə,
Gündən-günə ucalırsan.
Nəsillərə şöhrət olub
Nəsillərdən güc alırsan.

Gecən parlaq, gündüzün ağ,
Ay camalın, günəş gözün.
Əsrləri qabaqladın,
Amma gəncsən hələ özün.

***

Sumqayıtım, gözəl diyar,
Torpağına qurban olum.
Budaqlardan qopub düşən,
Yarpağına qurban olum.
Varlığına keşik çəkən,
Mərd oğluna,
Mərd qızına, qurban olum,
Gözəllikdə tayın yoxdu,
Gəl, özünə qurban olum!

***

Əhsən sənə, ey qəhrəman,
Zəhmətinlə gülür Vətən.
Doğma şəhər Sumqayıtı,
Öz əlində böyüdürsən.

Koroğlutək yalmanladın,
Xəzri kimi azğın yeli.
Hünərə bax, cənnət etdi,
Şoranlığı xoş əməlin.

Arzun böyük, qəlbin geniş,
Qəlbi kimi göy Xəzərin.
Qönçələnib, göz oxşayır
Tər güllərin, çiçəklərin

Əzəl gündən Vətən oldu,
Əməyinin ilhamçısı,
Bir dirilik çeşməsidir,
Alnındakı tər damcısı.

***

Baxdıqca hey baxıram,
Gözəllikdən göz doymur.
Aşıqlar əldən düşür,
Sinədəki saz doymur.
Cəvahir dodaqlardan,
Axıb gələn söz doymur.
Vallah bu seyrangahda,
Işvə doyur, naz doymur.
Oğlan nazdan yorulur,
Bu həvəsdən qız doymur.
Bunu yaradan insan,
Deyin, unudularmı.
Dünyanı gəzib dolan,
Belə bir bulvar varmı?

***

Sumqayıtım, doğma yurdum,
Ilk yuvamı səndə qurdum.
Qucağına hər diyardan- Xankəndindən,
Uzaq-uzaq dağ kəndindən,
Ərlər gəldi, nərlər gəldi.
Əlbir oldu, dilbir oldu
Hamı burda.
Şirinləşdi ağzımızın
Dadı burda, tamı burda.
Göy Xəzərin sahilində
Göydələnlər ucaltdıq biz,
Səni cavan edə-edə,
Özümüzü qocaltdıq biz!

***

Mənim doğma şəhərim,
Eşqim, gücüm, hünərim.
Sən mənim ümid yerim,
Inam yerim, and yerim.
Sən necə də gözəlsən,
Gündüzün özgə aləm,
Bax, gecə də gözəlsən.
Mənim doğma şəhərim.
Səni hər an, hər zaman
Bax beləcə şən görüm,
Qoynunu gülşən görüm.
Mehriban insanları,
Deyib-gülüşən görüm
Eşqili cavanları,
Burda görüşən görüm,
Mənim doğma şəhərim.

***

Aydan nur almısan, günəşdən ziya,
Sən görən gözümsən, gözüm, Sumqayıt,
Illərin qoynunda çatdın arzuya,
Sənə fəda olum özüm, Sumqayıt
Müzəffər çıxdın, sən hər imtahandan,
Dünyanın köksünə yazıldı adın.
Sən həyat eşqiylə ucalan zaman
Sənə ilham verdi doğma evladın

Vətən torpağının hər qarışında
Sənin əməllərin çiçək-çiçəkdir.
Hələ xoş amallar durur qarşında,
Əkdiyin pöhrələr böyüyəcəkdir.

## Sumqayıt

Ay əliylə qələm çəkib qaşına,
Bərəkəti günəş töküb başına.
Yaman gəlib göy Xəzərin xoşuna,
Xəzər kimi sonsuzlaşır Sumqayıt.
Qocaldıqca cavanlaşır Sumqayıt.

Hər yerində xoş arzular gül açır,
Qucağında gül balalar dil açır.
Gənclik burdan kainata yol açır,
Kainatla soraqlaşır Sumqayıt!
Qocaldıqca cavanlaşır Sumqayıt.

Fəhləsinin alnı açıq, üzü ağ,
Küçələri yaraşıqlı çılçıraq.
Qibləgahdır, səcdəgahdı bu torpaq,
Bu torpağa çox yaraşır Sumqayıt.
Qocaldıqca cavanlaşır Sumqayıt.

Binaları cərgələnir ucalır,
Oğlu, qızı məhəbbətdən güc alır.
Hər kim desə Sumqayıtım qocalır,
Inanmayın, təzə coşur Sumqayıt,
Qocaldıqca cavanlaşır Sumqayıt.

## Sumqayıt bulvarı

Burda tüğyan edir gecə nur seli,
Göyün ulduzları səpilir yerə.
"Sumqayıt bulvarı" dünya gözəli,
Gör necə yaraşır mavi Xəzərə.

Elə bil xalıdır bu yaşıl çəmən,
Ilmələr, çeşnilər, gözəl naxışlar.
Bəxtəvər başına, ay ulu Xəzər,
Hüsnünə boylanır xumar baxışlar.

Sən bu mənzərəyə dönüb bir də bax,
Qönçələnib can dərmanı çiçəklər.
Hər yan seyrangahdı, hər yer çılçıraq,
Göy çəməndə ürək açan çiçək tər.

Bəşər övladının işi, əməli,
Bu şoran çölləri gülüstan edib.
Gözəllər gözəli Sumqayıtımı,
Dillərdə dolaşan bir dastan edib.

Eşq olsun Vətənin igid oğluna,
Daşı daş üstünə qoyana alqış.
Xalqın məhəbbəti halaldır ona,
Elin istəyini duyana alqış.

Burda tüğyan edir gecə nur seli,
Göyün ulduzları səpilir yerə.
"Sumqayıt bulvarı" dünya gözəli,
Gör necə yaraşır mavi Xəzərə!

## Sumqayıt necə gözəldir

Nəvəm-nəticəmlə gəzirəm indi,
Ilahi , Sumqayıt necə gözəldir.
Bu qoca dünyanın əşrəfi insan,
Gör şoran çöllərdə nələr düzəldir.

Yenə çözələnir könül dükcəsi,
Yadıma o gözəl zamanlar düşür.
Yadıma kəndlərdən axışıb gələn,
Sumqayıtı quran cavanlar düşür.

Mən də ərgən idim bura gələndə,
Dilimdə eşq adlı söz oynayırdı.
Içimdə məhəbbət tüğyan edəndə,
Gözümdə sönməyən çıraq yanırdı.

Keçdi aram-aram, keçdi o illər,
Eşqin qapısına qıfıl vuruldu.
Bir zaman kükrəyən, çağlayan sellər,
Mənzilə yetmədi, yolda yoruldu.

Artıq ömür keçib, yaş qarıyıbdı,
Üzümə toxunan qış nəfəsidir.
Ürəyim bir evdi, qoşa qapılı,
Gözlərim o evin pəncərəsidir.

Qoy o pəncərədən baxım dünyaya,
Itən dünənimi yenidən görüm.
Boylanım günəşə, ulduza, aya,
Vətən torpağını daim şən görüm.

Üstümə yeriyən qəm karvanını,
Dumana verələr, çənə verələr.
Coşğun gəncliyimin bircə anını,
Qaytarıb yenidən mənə verələr.

Nəvəm-nəticəmlə gəzirəm indi.
Ilahi, Sumqayıt necə gözəldir.
Bu qoca dünyanın əşrəfi insan,
Gör şoran çöllərdə nələr düzəldir?

## Könlümdən nələr keçir

Sübhün şəfəqi yana üfüqün yanağında,
Günəş gözəl görünə öz qızıl çanağında!
Saçaq-saçaq telini səpə yerin üzünə,
Göylərin sovqatını torpaq təpə gözünə.
Bahar yaşıl xalını döşəyə yal-yamaca,
Göyün bağrı deşilə, açıla nurlu baca.
Nur ələnə yuyula bağ-baxçanın bənizi,
Gülüstana bürüyə gözəlliyin dənizi.
Ağaclar köynəyini suya çəkib quruda,
Torpağın üzü gülə, dərdi-qəmi unuda.
Şirin yemlik, əvəlik cücərə, çıxa üzə,
Yarpız ağbaldır ola sularda üzə-üzə,
Daşaltı gicirtkanı sığallaya sərin meh,
Quzqulağın tacında xumarlana inci şeh.
Baldırğan özəkləyə, qanqal həvəsə gələ,
Quşəppəyi şivləyə, göbələk yeri dələ.
Qazayağı, mərəvcə, kişniş yeməli ola,
Bu sevincdən, fərəhdən güllərin gözü dola.
Şomu, çırış gətirə Narxanımın gədəsi,
Yamanca dadlı olur cincilimin kətəsi.
Səbzi də özgə aləm, qırxbuğana qatasan,
Küllü sacın altında bir gur ocaq çatasan.
Kətə bişirən qızla ələqə saxlayasan,
Təzə nehrə yağıyla kətəni yağlayasan.
Neçəsini götürüb yollanasan çadıra,
Kətənin yağı dama, üst-başını batıra.
Boz sürülər yaylağın sinəsinə yayıla,
Dələmə torbaları təmiz-təmiz yuyula.
Nənələr süd sərələr gərdəkli nəmilərdə,
Bin-bərəkət qaynayar nənələr olan yerdə.
Igid ərlər, oğullar baharın oğlan çağı,
Halal zəhmət təriylə yoğuralar torpağı.
Ana torpaq hay verə, toxum çatlaya yerdə,
Möcüzəli bir aləm, açıla pərdə-pərdə.
Torpaq halallıq sevir, torpaq halaldan halal,
Qayğını torpağa çək, sərvəti torpaqdan al.
Sən torpağın bətninə bir cəvahir salarsan,
Əvəzində torpaqdan min cəvahir alarsan.
Günəş yeri şən görüb salamlaya baharı,
Əriyə könüllərin intizarı, qubarı.

## Belə ola həmişə

Könlümə dağlar düşür,
Ayna bulaqlar düşür,
O gözəl çağlar düşür,
Qızlar gələ görüşə,
Belə ola həmişə.

Bərəkətli il gələ,
Seldərədən sel gələ.
Yaylaqlara el gələ,
Sürülər qalxa döşə,
Belə ola həmişə.
Çıxam yalın qışına,
Baxam Göbəkdaşına.
Ömrümün sərt qışına,
Güllü bahar ilişə,
Belə ola həmişə.

Köç düşə Çaldağına,
Səfalı oylağına.
Naxır gələ sağına,
Inək-buzov mələşə,
Belə ola həmişə.

Gələ sehli duman, çən,
Bitə lalə, yasəmən.
Hanı çiçəkli çəmən,
Köz düşə, kabab bişə,
Belə ola həmişə.

Kimə deyim dərdimi,
Qürbət də bir yerdimi.
Əvəz səni gördümü,
Xar düşüb dilə-dişə,
Belə ola həmişə.

## Bir zaman

Babəkimin qılıncıdır Qılıncyal,
Ovxarlanıb qından çıxıb bir zaman.
Koroğlunun diz yeridir Gendərə,
Igidləri yerə yıxıb bir zaman.

Nizamgölü Nizamidən qalıbdı,
Fərhad babam burda külüng çalıbdı.
Niyaz düşən səfalı yurd olubdu,
Loğman gəlib çiçək yığıb bir zaman.

Çuxuryurdda dövran sürüb Xançoban,
Seyidsuyu şəfa verib hər zaman.
Xanqızımız Xurşudbanu Natəvan,
Göbəkdaşda xına yaxıb bir zaman.

Işıqlının hər qayası nağıldı,
Şəngərqala igid ərdi, oğuldu.
Qaçaq Nəbi bu dağlarda doğuldu,
El yolunda qanlar axıb bir zaman.

Çömçəbulaq Ələsgərin sazıdı,
Yeddigözəl gözəllərin gözüdü.
Gəlinqaya Həcər nənə özüdü,
Qurşağına qatar taxıb bir zaman.

Yaranışdan haylı olub bu dağlar,
Nuh Nəbilər yola salıb bu dağlar.
Kimin imiş, kimə qalıb bu dağlar,
Bu dağlara Əvəz baxıb bir zaman.